*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bu günə qədər möhtəşəm tarixi nailiyyətlərə imza atıb. Son illərdə Azərbaycan mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edərək bu sahədə zəngin təcrübə qazanıb. Ancaq COP29 həm miqyasına, həm də qlobal əhəmiyyətinə görə, Azərbaycanın təşkil etdiyi ən böyük tədbir kimi tarixə düşdü. Bu konfrans ölkəmizin beynəlxalq arenadakı mövqeyini daha da gücləndirəcək.*

# COP29-da strateji sənədlər qəbul edildi



ABŞ, Fransa və Niderland kimi dövlətlər COP29-un əhəmiyyətini azaltmaq üçün tədbirə yüksək səviyyəli heyətlə qatılmaqdan imtina etdilər, hətta digər ölkələrin də iştirakını əngəlləməyə çalışdılar. Lakin bütün bu cəhdlər Azərbaycanı yolundan döndərə bilmədi. Sakit və qətiyyətli mövqeyi ilə ölkəmiz destruktiv qüvvələrin planlarını puça çıxardı. "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz və inklüziv aparılmasını təmin etdi. İlk vaxtlar bəziləri Azərbaycanın COP29-u yüksək səviyyədə təşkil edəcəyinə şübhə etsə də, ölkəmiz bütün ehtimalları alt-üst etdi. Kiçik ada dövlətlərinin və zəif inkişaf etmiş ölkələrin çağırışlarını diqqətə alaraq ədalətli və inklüziv yanaşma nümayiş etdirdi.

Dünyanın 200-ə yaxın dövləti COP29 müzakirələrində iştirak etdi. 80 dövlət və hökumət başçısının, 76 mindən çox iştirakçının qatıldığı bu möhtəşəm tədbir Azərbaycanın təşkilatçılıq bacarığını və beynəlxalq nüfuzunu bir daha sübut etdi. Rəsmi Bakı bir daha vurğuladı ki, Azərbaycan böyük tədbirlərin mərkəzində olmaq və qlobal problemlərə həll yolu tapmaq qabiliyyətinə malikdir.

COP29 İqlim Sammiti mühüm hadisələr və qərarlarla yadda qaldı. Xüsusilə, noyabrın 23-də axşam saatlarından başlayaraq 24-ü səhərədək davam edən bağlanış plenar iclası dünya ictimaiyyətində böyük maraq oyatdı. İclas çərçivəsində qəbul olunan qərarlar təkcə konfrans iştirakçıları üçün deyil, həm də qlobal miqyasda əhəmiyyətli təsirə malik oldu. Uzun illərdir razılaşdırılmayan Paris Sazişinin 6-cı maddəsi nəhayət, tam işlək vəziyyətə gətirildi. Bu mühüm qərar atmosferə buraxılan zərərli qazların həcminin azaldılması ilə bağlı öhdəlikləri dəqiq şəkildə müəyyən edir. COP29 Sədrliyinin ən böyük nailiyyətlərindən biri olan bu addım ətraf mühitin qorunması və iqlim dəyişiklikləri ilə qlobal mübarizədə dönüş nöqtəsidir. İnkişaf etmiş ölkələrin 2035-ci ilə qədər hər il inkişaf etməkdə olan dövlətlərə ən azı 300 milyard dollar yardım etməsi və ümumilikdə 1,3 trilyon dollar iqlim maliyyəsi ayırması hədəfi dünya ictimaiyyəti tərəfindən təqdirəlayiq hesab edilir. Qeyd edək ki, COP29-a qədər bu məbləğ 100 milyard dollar həcmində idi. ABŞ, Fransa, Niderland və digər ölkələrin maliyyə öhdəliklərindən qaçma cəhdləri uğursuzluqla nəticələndi. Qlobal iqlim dəyişmələrinin əsas aktorları olan bu dövlətlər atmosferə ən çox karbon emissiyası buraxırlar.

Yeni İqlim Maliyyə Məqsədinin qəbulu iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə əsl dönüş nöqtəsi oldu. Bu iddialı hədəf dünyanın iqlim böhranını həll etmək üçün zəruri resursların səfərbər edilməsinə dair təsirli və çevik mexanizmləri hərəkətə gətirəcək. 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri, dayanıqlı kənd təsərrüfatı və iqlimə davamlı infrastrukturun geniş şəkildə tətbiqi üçün yeni imkanlar yaranacaq. Bu möhtəşəm maliyyə hədəfi, həmçinin qlobal maliyyə sistemlərinin yenidən qurulmasına, iqlim prinsiplərinin iqtisadi strategiyalara inteqrasiyasına və özəl sektorla tərəfdaşlıqlar vasitəsilə innovasiyaların təşviqinə güclü təkan verəcək. Gələcəyi formalaşdıran bu proseslər planetimizi qorumaq üçün əvəzsiz fürsətlər yaradır.

COP29 ərəfəsində ən əlamətdar yeniliklərdən biri kiçik və orta sahibkarların "yaşıl keçid"ini dəstəkləmək məqsədilə yaradılan Bakı İqlim Koalisiyasının elan edilməsi oldu. Bundan əlavə, konfrans çərçivəsində bir sıra strateji sənədlər qəbul edildi: "Enerji üzrə öhdəliklər və bəyanatlar", "COP29 Yaşıl Rəqəmsal Fəaliyyət Bəyanatı", "İqlim Davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsü", "Üzvi Tullantılardan Metanın Azaldılmasına dair Bəyannamə" və daha bir çox qlobal əhəmiyyətli təşəbbüslər.

Maliyyə, investisiya və ticarət sahələri də iqlim gündəliyinin mərkəzində saxlanıldı. BMT qurumları, beynəlxalq təşkilatlar, çoxtərəfli inkişaf bankları, iqlim fondları, özəl sektor, vətəndaş cəmiyyəti və digər maraqlı tərəflər Bakıda bir araya gələrək böhrana qarşı güclü koalisiyalar formalaşdırdılar.

**Musa BAĞIRLI,**
**"Respublika".**